**Fitosanitar monitorinqlərə dair məlumat**

**(26 aprel 2024)**

Agentlik əməkdaşları ixrac potensiallı məhsullar olan badam bağlarında və kartof sahələrində monitorinqlər aparıb.

Monitorinqlər zamanı Ağsu rayonunun Növcü kəndində 30 hektar, İsmayıllı rayonunun Xəlilli kəndində 38 hektar badam bağından, habelə Ağsu rayonunun Qaraqoyunlu kəndində yerləşən kartof sahələrindən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitunun müvafiq sınaq laboratoriyasına təqdim edilib. Bununla yanaşı, yaşıllıq və park sahələrində də monitorinqlər həyata keçirilib.

Monitorinqlər nəticəsində kartofçuluq təsərrüfatlarında karantin tətbiq edilən kartof yumrularında halqavari bakterial çürümə (*Clavibacter michiganensis* subsp.*sepedonicus)* və karantin tətbiq edilməyən Fuzarioz çürümə (*Fusarium solani*) aşkarlanıb.

Kartof yumrularında halqavari bakterial çürümə aşkar edilmiş kartofçuluq təsərrüfatlarında bitki mühafizəsi tədbirlərinin görülməsi barədə qərar qəbul edilib.